AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

11 avqust 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 31 (3594)



# BİRLİYİMİZİN, GÜCÜMÜZÜN TƏNTƏNƏSİ

## *"Könüllər şəhəri"ndən dünyaya sülh, barış sədaları ucaldı*



Avqustun 9-da Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Oyunların məhz Konyada keçirilməsi təsadüfi deyil. Qədim tarixi olan Konya şəhəri həm də İslam sivilizasiyasının mühüm mərkəzlərindən sayılır. Böyük təsəvvüf şairlərindən olan Cəlaləddin Ruminin türbəsi zahidlər üçün ziyarətgahdır. Ümumiyyətlə, Konya müxtəlif mədəniyyətlərin bir araya gəldiyi harmonik ruha sahibdir.

Əsas qayəsi Mövlanə Cəlaləddin Ruminin "Biz birləşdirməyə gəldik, ayırmağa gəlmədik" olan açılış mərasimindəki kompozisiyaların təqdimatı bütün dünyaya birliyin, həmrəyliyin gücünü sərgilədi. "Salam olsun!" kompozisiyası ilə Türkiyədən bütün İslam dünyasına salam göndərildi. "Həmrəyliyin gücü" kompozisiyasının əsas qayəsi isə islam dünyasının dəyərlər düşüncəsi ilə birləşməsinin və həmrəyliyinin tərənnümü oldu. "Elmin gücü" kompozisiyasında İslam dünyasının qızıl dövrü tərənnüm edilir. Bu hissədə İslam alimlərinin bütün insanlığa bu günümüzə qədər gəlib çatan bəşəri irs qoymaları təbliğ olunur. "Hikmətin gücü" kompozisiyasında böyük bir mədəniyyətin paytaxtı, elmin və hikmətin diyarı, könüllərin görüş yeri olan Konyanın miras qalan əsərləri təqdim olunur, bu qədim şəhərin tarixinə səyahət edilir. "Könüllər şəhəri: Konya" kompozisiyasında isə İslam aləminin müdriklərinin uzun illər elm və hikmət axtarışlarından sonra Konyaya üz tutmaları və bu şəhərdə İslam mədəniyyətinin ən nadir incilərini yaratdıqları tərənnüm olunur. "Eşqin gücü" kompozisiyasında bu gözəl diyarda kök salan hikmətli düşüncələrin öz bəhrəsini verdiyi, bu hikmətin və sevginin Konyanı "Könüllər şəhəri"nə çevirdiyi təbliğ edilir.

Qeyd edək ki, avqustun 18-dək davam edəcək V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən 4 mindən çox atlet idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə aparır.

Ölkəmizi İslamiadada 281 idmançı təmsil edir. Onlar ağır atletika, atıcılıq, atletika, basketbol 3x3 (qadınlar və kişilər), cüdo, futbol, güləş, gimnastika, aerobika, bədii gimnastika, həndbol (qadınlar və kişilər), karate, kikboksinq, qılıncoynatma, oxatma, para-oxatma, para-atletika, para-üzgüçülük, stolüstü tennis, taekvondo, velosiped, voleybol (qadınlar və kişilər) və üzgüçülük yarışlarında güclərini sınayırlar.

İdmanın birləşdirici gücü ilə həmrəyliyi inkişaf etdirməyi hədəfləyən V İslam Həmrəyliyi Oyunları islam aləminin bir olub bir araya gələ bildiyini və bu birliyin gücümüzü daha da artırdığını bütün dünyaya nümayiş etdirir.




Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il avqust ayının 25-də Şəki Şəhər Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 24.08.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Yanğının səbəbi məlum oldu

Avqustun 9-u saat 18 radələrində Yevlax şəhəri ərazisində beşmərtəbəli yataqxana binasının 5-ci mərtəbəsinin dam örtüyündə yanğın hadisəsi baş verib.

Dərhal yanğının baş verdiyi yerə Fövqəladə Hallar Nazirliyinin Yevlax, Bərdə, Mingəçevir yanğınsöndürmə texnikası və canlı qüvvəsi cəlb edilərək yanğın söndürülüb, binada olan 300-dən çox sakin təxliyyə edilib.

Hadisə zamanı binada yaşayan sakinlərdən hazırda xəstəxanaya müraciət edən olmayıb.

Yanğının söndürülməsi ilə bağlı tədbirlərə cəlb edilmiş Yevlax Yanğından Mühafizə Hissəsinin iki əməkdaşı və Yevlax Rayon Polis Şöbəsinin iki əməkdaşı yanıq xəsarətləri ilə xəstəxanaya müraciət edib, onlara tibbi yardım göstərilib, hazırda vəziyyətləri normaldır.

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilib ki, həmin binanın beşinci mərtəbəsində yaşayan 1977-ci il təvəllüdlü Murad Əliyevin məişət zəminində baş vermiş mübahisə nəticəsində yaşadığı mənzildə qəsdən törətdiyi yanğın daha sonra çoxmənzilli yataqxana binasının dam örtüyünə yayılıb.

Faktla bağlı Yevlax Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin 186.2.1 və 186.2.2-ci (zərərçəkmiş şəxsə yandırmaqla külli miqdarda ziyan vurmaqla qəsdən əmlakı məhv etmə) maddələri ilə cinayət işi başlanıb.

Murad Əliyev şübhəli şəxs qismində saxlanılıb.

İstintaq - əməliyyat tədbirləri davam etdirilir.

# Uğurlu əməliyyatlar nəticəsində

## *Saxlanılan şəxslər bir çox cinayətlərdə təqsirli bilinirlər*

Sabunçu Rayon Polis İdarəsinin, ərazi polis şöbə və bölmələrinin əməkdaşları tərəfindən iyul ayında rayon ərazisində keçirilən əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsi, eləcə də kultivasiyası ilə məşğul olan, silsilə oğurluq, quldurluq, soyğunçuluq törədən və üzərində qanunsuz olaraq silah saxlayan ümumilikdə 61 nəfər saxlanılıb. Həmin şəxslərdən 40-ı narkotik cinayətləri ilə bağlı polisin keçirdiyi əməliyyat nəticəsində tutulub. Narkotiklə bağlı saxlanılan şəxslərdən 10 min 143 ədəd yaş halda çəkisi 431 kiloqram olan narkotik tərkibli çətənə kolu və 2 kiloqram yüksək təsiredici xassəyə malik narkotik vasitələr aşkar olunub.

Qeyd edilən dövr ərzində Sabunçu Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyatlar zamanı Balaxanı, Zabrat, Bakıxanov, Maştağa, Nardaran və digər qəsəbələrdə yerləşən evlərdən, mağazalardan silsilə oğurluqlar edən 12 nəfər saxlanılıb.

Bu şəxslərin həmin ərazilərdə yerləşən 85 şəxsi evdən və obyektdən pul və məişət əşyaları oğurladıqları müəyyən edilib. Hesabat dövründə Sabunçu rayonunda üzərində qanunsuz olaraq silah saxlayan, quldurluq və soyğunçuluq edən 3 nəfər də tutularaq istintaqa cəlb edilib.

Aşkar edilən bütün faktlarla əlaqədar İdarənin İstintaq Şöbəsində cinayət işləri başlanılıb, araşdırmalar davam etdirilir.

Saxlanılanların cinayət əlaqələrinin müəyyən edilməsi, həmçinin Sabunçu rayonu ərazisində narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan digər şəxslərin tutulması istiqamətində polis əməkdaşları tərəfindən mübarizə tədbirləri davam etdirilir.

# ARZUSUNA KƏLBƏCƏRDƏ ÇATDI

## Doğulduğu torpaqda da şəhidlik zirvəsinə ucaldı



**Çavuş Abdullayev Həsən Aydın oğlu** Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində şəhid olan hərbi qulluqçularından biridir. O, 1990-cı ilin oktyabr ayının 15-də Kəlbəcər rayonunun Zivel kəndində doğulub. Abdullayevlər ailəsi 1993-cü ilin aprel ayında Ermənistanın hərbi təcavüzü nəticəsində Kəlbəcər rayonundan məcburi köçkün düşüb. Məcburi köçkün olaraq İsmayıllı rayonunun Quşencə kəndində məskunlaşıblar. Sonrakı dövrdə ailə İsmayıllı rayonunda məcburi köçkünlər üçün salınmış Qarabağ qəsəbəsinə yerləşib.

Birinci Qarabağ müharibəsi zamanı Həsənin bibisi oğlu Nadir Heydərov şəhidlik zirvəsinə ucalıb.

Həsən Quşencə kəndindəki şəhid Əhmədağa Babayev adına tam orta məktəbi bitirib. O, 2009-cu ilin aprelində müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Bakı ətrafındakı "N" saylı hərbi hissəsində xidmət keçib, zirehli texnikalar bölüyündə PDM-2 (piyadanın döyüş maşını) üzrə sürücü-mexanik vəzifəsi ona həvalə olunub. 2010-cu ilin oktyabr ayında hərbi xidmətdən tərxis edilib.

Ürəyi Vətən eşqi ilə döyünən, ata-baba yurdunun nisgili ilə yaşayan Həsən həyatını hərbi xidmətə bağlamaq barədə qəti qərarını verib. Dövlətçiliyimizin təhlükəsizliyinin sütunlarından biri və peşəkar, döyüş təcrübəli hərbi qurum olan Daxili Qoşunlarda xidmət etməyi özünə şərəf bilən Həsənin müraciəti komandanlıq tərəfindən müsbət cavablandırılıb. 2013-cü ilin iyun ayının 4-də Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsində atıcı, xüsusi təyinatlı dəstənin avtomobil yarımqrupunda sürücü, xüsusi həmlə qrupunda qumbaraatan köməkçisi və atıcı-sanitar vəzifələrində layiqincə xidmət edərək komandanlığın etimadını doğruldub. Ailəsi onun hərbi xidməti ilə qürur duyub, doğmalarının mənəvi dəstəyi Həsəni daha da ruhlandırıb. Qardaşı İsmayıl da Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə həvəsləndirib. İsmayıl 2016-cı ilin noyabr ayından 2021-ci ilin yanvar ayınadək qoşunların Bakı şəhərinin Xətai rayonunda yerləşən "N" saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xidmət keçib.

2020-ci ilin sentyabr ayının 27-də ordumuzun düşmən üzərinə əks-hücumu başlayanda hərbi qulluqçumuz ön cəbhəyə ilk göndərilənlərin arasında olub, doğma yurdu Kəlbəcər istiqamətində vuruşub. Vətən müharibəsi iştirakçısı, Daxili Qoşunların Quba rayonundakı "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Zaur Rəhimov: "Mürəkkəb relyefə malik Murovdağ silsiləsinin ərazisində mövqelənmiş təcavüzkarın postlarına hücum edərkən Həsən qorxmaz döyüşçü kimi silahdaşlarını ruhlandırıb, avtomat silahı ilə onlarla işğalçının həyatına son qoyub".

Vətən müharibəsi qazisi, ehtiyatda olan baş çavuş Elnur Cəfərov Həsənin dostu və silahdaşı kimi onun haqqında xatirələrini bölüşdü. 2013-cü ildən bir-birilərini tanıdıqlarını deyən Elnur dostunun xeyirxah, sözü və əməli bütöv, qayğıkeş insan, etibarlı silahdaş olduğunu vurğuladı.

Vətən müharibəsi iştirakçısı çavuş Elçin Əhmədağalı: "Vətən müharibəsində Həsənin ilk döyüşü Murovdağ ərazisində "Canavar sağ" adlanan yüksəklikdəki mövqenin alınmasında olub. Sentyabrın 30-da günortadan



sonra "Canavar sağ"dan Çiçəklidağ yüksəkliyinə doğru irəliləyərkən düşmənin atdığı mərmi onun həyatına son qoyub"...

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla çavuş H.Abdullayev ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidimizin qardaşı İsmayıl DİN-in Baş Mühafizə İdarəsinin Şamaxı Regional Mühafizə Şöbəsində polis nəfəri vəzifəsində xidmət edir.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Diqqət rəğbəti artırır

## Şəhid ailələri minnətdarlıq edirlər




Son 30 ildə olduğu kimi, bu gün də torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, müharibə iştirakçılarına dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı göstərilir.

Qəhrəmanlıq salnaməsi yazaraq yaddaşımıza, ruhumuza əbədilik həkk olunan şəhidlərimizin ailə üzvlərinin qayğısı hər birimizin qayğısıdır. Onlar torpaqlarımızın bölünməzliyi, bütövlüyü və xoşbəxt gələcəyimiz üçün döyüşdülər, canları-qanları bahasına milli mənliyimizi, qürurumuzu bizə qaytardılar. Bu birgə işimizdir.

Hər zaman vətəndaşın yanında olan Azərbaycan Polisi peşəkar xidməti fəaliyyəti ilə yanaşı vətəndaş mövqeyi sərgiləyir. Belə ki, respublikanın bütün bölgələrində şəhidlərimizin bizə əmanəti olan ailələrini mütəmadi ziyarət edir, qayğıları ilə maraqlanır, maddi və mənəvi dəstək olur.

**Şəhid həyat yoldaşı Maral Əliyevanın** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda da bunlar öz əksini tapıb. O, yazır: ***"Şəhid ailəsi olmağımla qürur duyuram. Təsəllim odur ki, şəhidlər unudulmur, adları həmişə Vətənlə qoşa çəkilir. Bu gün özümü yalnız hiss etmirəm. Çünki hər addımda səmimiyyətlə və rəğbətlə qarşılaşırıq. Övladımın ağır xəstəlikdən əziyyət çəkməsi dərdimin üstünə dərd gətirsə də, ətrafımdakı xeyirxah, qayğıkeş insanların sayəsində həyata tutunmuşam. Polis qardaşlarım da bu çətin dönəmdə bizlərə yardımçı oldular. Belə ki, Qobu Rayon Polis Bölməsinin rəhbərliyi vaxtaşırı qayğılarımızla maraqlanıb, köməyini əsirgəməyib. Mən bütün bunları görməzdən gələ bilməzdim. Diqqət, hörmət rəğbətəlayiqdir. Bir şəhid ailəsi, bir ana olaraq DİN rəhbərliyi başda olmaqla daxili işlər orqanları əməkdaşlarına təşəkkürümü bildirirəm".***

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*



# POLİSLƏR V İSLAM HƏMRƏYLİYİ OYUNLARINDA YARIŞACAQ




Avqustun 9-da Konya şəhərində V İslam Həmrəyliyi Oyunları start götürüb. Qeyd edək ki, V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən 4 min 200 idmançı yarışacaq. Avqustun 18-dək davam edəcək yarışda Azərbaycanın idman şərəfini ümumilikdə 281 idmançı qoruyacaq.

Bu oyunlara DİN-in İdman Cəmiyyətinin 4-ü polis olmaqla 12 yetirməsi də qatılıb. Stend atıcılığı üzrə Riqina Meftahətdinova, yunan-Roma güləşi üzrə Dadaş Dadaşbəyli, Cüdo idman növü üzrə Məmmədəli Mehdiyev, Kikboks idman növü üzrə Surət Qarayev mübarizə aparacaq.

Xatırladaq ki, ilk dəfə bu oyunlar 2005-ci il aprelin 8-dən 20-dək Səudiyyə Ərəbistanında keçirilib. İkinci İslam Həmrəyliyi Oyunları 2009-cu ilin oktyabrında İranda keçirilməsi planlaşdırılsa da bu tarix sonradan 2010-cu ilin aprel ayına dəyişdirilib. Lakin müəyyən fikir ayrılığı səbəbindən ləğv edilib. 3-cü İslamiada oyunları 2013-cü ildə İndoneziyada, dördüncü dəfə isə 2017-ci ildə Bakıda keçirilib. Beşinci İslam Həmrəyliyi Oyunları 2021-ci ilin sentyabrında keçirilməli idi. Pandemiya ilə əlaqədar yarışa hazırlığın tam aparılması üçün oyunların 2022-ci ilə təxirə salınması məqsədəuyğun hesab olunmuşdu.



Yarış ərəfəsində idmançılarla görüşən prezident İlham Əliyev onlara bu fikirlərlə dəstək olub: "Əminəm ki, hər zaman olduğu kimi, Azərbaycanın idman bayrağı, idman şöhrətimiz yüksəklərdə olacaq və siz Vətənə qələbələr, müvəffəqiyyətlər, uğurlarla qayıdacaqsınız".

"Polis"in kollektivi olaraq idmançılarımıza uğurlar arzulayırıq.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# "Qan ver, yaşat!"

## Həmkarlarımız da bu nəcib işdə səfərbərdirlər







Hemofiliya, talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədilə Qax Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən aksiyada yerli idarə, müəssisə və təşkilatların kollektivləri ilə yanaşı, Polis Şöbəsinin əməkdaşları da fəal iştirak ediblər. Əvvəlcə həkimlər tərəfindən hər bir donorun sağlamlığı yoxlanılıb. Sonra səhhəti imkan verən şəxslərdən qan götürülüb.

*Mahir Məsimov,*
*polis baş leytenantı*

# Köməksizlərə polis dayaq olur

Bu günlərdə Bakıda bir ananın beş uşağıyla parkda gecələdiyi barədə sosial şəbəkələrdə yayılan məlumatlardan sonra polis dərhal məsələni nəzarətə götürüb. Ailənin yeri müəyyən edildikdən sonra sığınacağa yerləşdirilməsi təmin edilib.

Bu hadisə müxtəlif səbəblərdən yaxınları tərəfindən küçəyə atılan və köməksiz vəziyyətdə qalan uşaqların, qadınların hüquqlarının qorunmasında polis əməkdaşlarının çevik reaksiya verməsinə bir nümunədir. Polisin fəaliyyəti rəğbət doğursa da, təəssüf ki, ailədaxili münaqişələr nəticəsində evsiz-eşiksiz qalan uşaq və qadınlarla bağlı ilk belə hal deyil.

Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsindən "Polis"ə verilən məlumata görə, cari ilin 6 ayı ərzində paytaxtda polis əməkdaşları




tərəfindən 56 qadın və uşaq sığınacaqlara yerləşdirilib. Keçən ilin müvafiq dövründə isə bu rəqəm 33 olub.

*R.Mehtiyev*

# Diplomatik nümayəndəliklərin mühafizəsi əmin əllərdədir



Azərbaycanın Britaniyadakı səfirliyinə edilən məlum radikal hücum fonunda diplomatik nümayəndəliklərin mühafizəsi aktual mövzuya çevrildiyindən, ölkəmizdə bu vacib missiyanı həyata keçirən Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Diplomatik Nümayəndəliklərin mühafizəsi üzrə Əlahiddə Polis Taboruna baş çəkdik.

Əvvəlcə onu qeyd edək ki, taborun həyətində yaradılan səliqə-sahman, aparılan abadlıq və yaşıllaşdırma işləri o dəqiqə diqqət çəkir. İnzibati binanın qarşısında, həm açıq havada qurulan idman meydançasında, həm də qapalı zalda əməkdaşların fiziki hazırlıq səviyyələrinin yüksəldilməsi üçün zəruri avadanlıq və idman alətləri quraşdırılıb. Elə biz orada olarkən qorunan inzibati binanın silahlı hücumdan müdafiəsi üzrə təlim-məşqlər keçirilirdi.

Öyrəndik ki, taborun şəxsi heyəti növbəli iş rejimində xidmət etdiyinə görə burada fiziki hazırlıq məşqləri gündəlik keçirilir. Tabor komandirinin iştirakı ilə ayda bir dəfə əməkdaşlardan normativlər götürülür. Əlbəyaxa döyüş növləri üzrə də mütəxəssis dəvət edilib. Hətta Polis Akademiyasına qəbul öncəsi mandatdan keçən namizədlərin fiziki hazırlıq normativləri də yaradılan şəraitə görə burada aparılır.

**Taborun komandiri, polis polkovnik-leytenantı Əli Abdullayev** qəzetimizə bildirdi ki, ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin təhlükəsizliyinin təmin edilməsini DİN rəhbərliyi xüsusilə diqqət mərkəzində saxlayır. Onun sözlərinə görə, yüksək hazırlıq səviyyələri ilə fərqlənən taborun əməkdaşlarının fəaliyyəti dövlətlər arasında gedən hərbi-siyasi proseslərlə sıx bağlıdır: “Səhər təlimatında postlarda xidmətin təşkili məsələlərilə yanaşı, dünyada baş vermiş siyasi dəyişikliklər, hadisələr, terror aktları barədə şəxsi heyətə məlumat verilir. Harada nə baş verir, onları analiz edir və ölkəmizdəki diplomatik nümayəndəliklərlə bağlı arzuolunmaz hadisələrlə üzləşməmək üçün əlavə tədbirlər görürük”.





Komandir qeyd edir ki, tabor 30 səfirliyi, 3 nümayəndəliyi, 2 iqamətgahı mühafizə edir. Bu diplomatik korpusların yerləşdikləri ərazilərdə stasionar postlarda polis əməkdaşları xidmət etməklə bərabər, həmin ərazilər “Təhlükəsiz şəhər” sisteminə qoşulmuş kameralar vasitəsi ilə fasiləsiz vizual müşahidə altında saxlanılır: “Əgər hər hansı bir insident olarsa, həmin ərazi dərhal nəzarətə götürülür və müvafiq tədbirlər görülür”.

Səfirliklərin mühafizəsinin onların təhlükəsizlik xidmətləri ilə qarşılıqlı formada təmin edildiyini vurğulayan Ə.Abdullayev taborun şəxsi heyəti üçün xüsusi seminarlar təşkil edildiyini deyir: "ABŞ və İsrail səfirlikləri ilə treninqlər keçirilib, Rusiya səfirliyiylə oxşar seminarın keçirilməsi razılaşdırılıb. Bu treninqlərdə səfirliklərə edilən hücumlar, baş vermiş insidentlər öyrənilir, mühafizədə buraxılan boşluqlar təhlil edilir və xidmətin təşkilində, təkmilləşməsində istifadə olunur".

Sonda komandirdən Londondakı səfirliyimizə hücumdan sonra Britaniyanın ölkəmizdəki səfirliyinin mühafizəsinin gücləndirilib - gücləndirilmədiyini soruşduq: “Elə həmin gündən biz oraya əlavə qüvvə təhkim etmişik və səfirliyin qorunmasını gücləndirmişik. Bu hadisə ilə bağlı virtual akt zalında görüntülər göstərilib və əməkdaşlarla hər hansı oxşar hadisələr təkrarlanmasın deyə izahedici işlər aparılıb”.

*“Polis”*

# İz də tapıldı, qızıllar da, pullar da

Rayon ərazisində bir neçə oğurluq törətmişdi. Polis izinə düşsə də yaxalanmamışdı...

Yenə də eyni üsulla məhəllə-məhəllə, ev-ev gəzib, sonda axtardığını tapdı. Qusar şəhəri K.Kərimov küçəsi ev 5-də müvəqqəti yaşayan Rusiya Federasiyasının vətəndaşı Nizaməddin Mürşüdovun mənzilindən nə bir səs gəlirdi, nə də bir işartı görünürdü. Kimsənin onu görmədiyindən əmin olduqdan sonra hasardan aşıb həyətə tullandı. Evin ətrafını dolanıb pəncərələrdən birinin qarşısında durdu. Özü ilə gətirdiyi linglə pəncərəni sındırıb, ehmalca mənzilə keçdi. Arın-arxayın hər tərəfi axtardı. Nəhayət, axtardığını evin ikinci mərtəbəsində tapdı. Ev sahiblərinə məxsus ümumi dəyəri 6.480 manat dəyərində qızıl-zinyət əşyası, 45 min rus rubulu və 400 manat nağd pulu götürərək gəldiyi kimi də oranı tərk etdi.



Mənzilindən oğurluq edilməsini evə qayıtdıqdan sonra öyrənən N.Mürşüdov dərhal polisə məlumat verdi. Qusar Rayon Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Eldar İlyasovun əmri ilə yaradılmış əməliyyat-istintaq qrupu hadisə yerinə yollanıb lazımi araşdırmalar apardı.

Rəisyanı əməliyyat müşavirəsində bir daha son hadisələr müzakirə olundu, qətiyyətli tədbirlərin görülməsi tapşırıldı. Dəqiqliklə keçirilən araşdırmalar, faktlar arasındakı oxşarlıq oğurluqların eyni şəxs və ya şəxslər tərəfindən törədilməsi qənaətinə gəlməyə əsas verirdi.

Bütün şübhələri rayon sakini, əvvəllər məhkum olunmuş Şahin Əfəndiyevə yönəltdi. Araşdırmalar nəticəsində məlum oldu ki, hadisə baş verən gün, iyulun 21-də Şahin Bakı şəhərinə gedib. Oğurladığı qızıl-zinyət əşyalarını şəhər ərazisindəki qızıl qəbulu məğazalarından birinə 2 min 625 manata satan Şahini Abşeron RPİ-nin əməkdaşları şübhəli şəxs kimi saxlayıb və avtomobilinə baxış keçiriblər. Baxış zamanı oğurladığı pullar maddi sübut kimi götürülüb. O, Qusar RPŞ-nin əməkdaşlarına təhvil verilib.

Şahin polisdə günahsız yerə saxlandığını, bu işlərdən çoxdan əl çəkdiyini, halal zəhmətlə pul qazandığını ciddi-cəhdlə bildirirdi. Mənzildən götürülmüş əl-barmaq izləri isə ona törətdiyi əməli etiraf etməkdən başqa yol qoymadı...

Sonrakı araşdırmalar nəticəsində Şahinin bundan başqa rayon ərazisində daha iki analoji cinayət törətməsi də müəyyən olundu.

Bu uğurlu əməliyyatla bağlı məlumat verən **polis polkovniki E.İlyasov** qeyd etdi ki, ilin geridə qoyduğumuz yeddi ayı ərzində RPŞ əməkdaşları cinayətkarlıqla mübarizə ilə yanaşı, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması sahəsində də qətiyyət göstəriblər. Şöbə rəisi ötən dövrdə rayon ərazisində mənzillərin, obyektlərin mühafizə polisi tətəfindən qorunması üçün əhali arasında apardıqları maarifləndirmə tədbirlərini də diqqətimizə çatdırdı.

Yeri gəlmişkən, rayon ərazisində qeydə alınan 105 cinayətin açılması 87 faiz təmin olunub.Cinayətlərin ümumi sayı ötən ilin analoji dövrü ilə müqayisədə 9 fakt azdır. Ağır və xüsusilə ağır cinayətlərin açılması 83.3, qeyri-aşkar şəraitdə baş verənlərin açılması isə 92.9 faiz təmin edilib.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 14 cinayət qeydə alınıb ki, onlardan da 1-i satışla bağlıdır. “Xaşxaş 2022” tədbirlər planına uyğun olaraq yabanı halda bitmiş 724 ədəd ümumi çəkisi 1.428 kiloqram çətənə kolları məhv edilib.

Barələrində axtarış elan edilmiş 12 nəfərdən 6-sı tutulub, xəbərsiz itkin düşən 7 nəfərdən 6-sı tapılıb. Hesabat dövründə ötən illərdən bağlı qalmış 4 cinayətin, 3 oğurluq və 1 quldurluq hadisəsinin açılması təmin edilib.

Xırda talamalar üzrə vətəndaşlara dəymiş maddi ziyanın 100 faizi, icraatı tamamlanaraq məhkəməyə göndərilmiş cinayət işləri və bəraət verici əsaslar olmadan cinayət işinin başlanması rədd edilmiş materiallar üzrə dəymiş ziyan ödənilməsi isə 76.2 faiz təmin olunub. Əməliyyat yolu ilə bir avtomat silahı götürülərək aidiyyəti üzrə təhvil verilib.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# “Təmiz hava”ya töhfə verək

## Ekologiyanın qorunması üçün zəruri addımlar atılır



Avtomobillərdən atmosferə atılan zərərli tullantıların ətraf mühitə və insan sağlamlığına vurduğu zərərin qarşısının alınması məqsədilə avqustun 1-dən respublika ərazisində “Təmiz hava” aylığı keçirilir. Bu barədə Baş Dövlət Yol Polisi İdarəsindən məlumat verilib. Bildirib ki, “Təmiz hava” aylığının keçirilməsinə səbəb son zamanlar avtomobil yollarında mühərrikinin işlənmiş qazlarında atmosferə atılan zərərli maddələrin miqdarının normadan artıq olduğu nəqliyyat vasitələrinin istismarının atmosfer havasını çirkləndirməklə insanların həyat və sağlamlığına mənfi təsir göstərməsidir. Belə ki, bu gün ölkəmizdə atmosferə buraxılan çirkləndirici maddələrin 75 faizindən çoxu avtomobil və maye yanacağı ilə işləyən mühərriklərin payına düşür. Hesablamalara görə ölkədə avtomobil nəqliyyatından atmosfer havasına il ərzində atılan zərərli maddələrin miqdarı 700 min tona yaxındır. Qeyd edək ki, “Təmiz hava” aylığı avqustun 31-dək davam edəcək.

*“Polis”*

# BİZƏ YAZIRLAR...

## Təşəkkür dolu məktublar

Müstəqil.az saytının baş redaktoru Cavid Süleymanov DİN-ə ünvanladığı təşəkkür məktubunda yazır: “Vətən müharibəsi qazisi Ceyhun Nəcəfzadə intihara cəhd etsə də xoşbəxtlikdən bu cəhdin qarşısı alınmışdı. Onun dələduzluqla üzləşməsi barədə DİN-ə müraciət etdim. Müraciətimə operativ baxıldı. Dələduzluq edən şəxs tez bir zamanda tapılaraq məsuliyyətə cəlb olundu. Qazimizə dəymiş maddi ziyan ödətdirildi. Belə çevik, operativ reaksiyaya və göstərilən köməkliyə görə Sabunçu Rayon Polis İdarəsinin rəhbərliyinə və şəxsi heyətinə minnətdarlığımı bildirirəm".

Bakı şəhər sakini Nəsibə Məmmədova məktubunda qeyd edir ki, taksi sürücüsünün onu təhqir etdiyinə və kobud rəftarına görə polisə müraciət edib. O, Bakı şəhər Baş Polis İdarəsinə dəvət olunub və üzləşdiyi problem öz həllini tapıb.



Azərbaycan Jurnalistlər və Yazıçılar Birliyinin üzvü Əlmaniz Ələkbərli təşəkkür məktubunda Balakən Rayon Polis Şöbəsinin şəxsi heyəti tərəfindən Şəhid ailələrinə, qazilərə, Vətən müharibəsi iştirakçılarına göstərilən diqqət və qayğıdan söz açır, rayonun Qabaxçöl qəsəbəsində polisin yeni inzibati binasının tikilməsindən razılıq edir və xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, asayişin təmin olunmasında, cinayətkarlıqla mübarizədə fəal iştiraklarına görə Rayon Polis Şöbəsinin şəxsi heyətinə minnətdarlığını bildirir.

Naxçıvan MR vətəndaşı Məmmədbağır Bağırzadə də ünvanladığı təşəkkür məktubunda ona qarşı törədilən dələduzluq əməli ilə bağlı müraciətə operativ baxılmasına və səmimi qəbula görə Xətai Rayon Polis İdarəsinin rəhbərliyinə minnətdarlıq ifadə edir.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

**Nizami RPİ 23-cü Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki evlərin birindən 14 min 125 manat dəyərində televizor, mobil telefon, noutbuk, planşet, modem, skuter, samovar, tozsoran və digər məişət əşyaları oğurlamaqda şübhəli bilinən paytaxt sakinləri, əvvəllər məhkum olunmuş Ə.Maşallayev və X.Sadıxova saxlanılıblar. Şəxsi axtarış zamanı Ə.Maşallayevdən metamfetamin aşkarlanaraq götürülüb.

◆◆◆

**Qəbələ RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən rayonun Mıxlıqovaq kənd sakini Q.Mehralıyev saxlanılıb. Şəxsi axtarış zamanı ondan 195 qramdan artıq metamfetamin, 89 qrama yaxın tiryək və 2 ədəd elektron tərəzi aşkar edilib. Davam etdirilən tədbirlərlə Q.Mehralıyevin yaşadığı evə baxış zamanı oradan 350 qramdan artıq tiryək, 117 qram marixuana və çətənə kolu götürülüb.




◆◆◆

**Tovuz RPŞ-nin** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində vətəndaşa məxsus bank kartından 2 min manat oğurlamaqda şübhəli bilinən Şəmkir rayon sakini əvvəllər məhkum olunmuş A.Həsənov saxlanılıb.

◆◆◆

**Səbail rayonu 39-cu Polis Bölməsinin** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 6-da rayon ərazisində yerləşən bağların birində Sumqayıt şəhər sakini olan azyaşlıya zor tətbiq edərək mobil telefonunu soyğunçuluq yolu ilə talamaqda şübhəli bilinən Bakı şəhər sakini R.Həsənov saxlanılıb.

◆◆◆

**Baş Cinayət Axtarışı İdarəsi və Abşeron RPİ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 2-də X.Həsənovaya zor tətbiq edərək soyğunçuluq yolu ilə qızıl boyunbağısını almaqda şübhəli bilinən Xırdalan şəhər sakini, əvvəllər məhkum M.Məmmədov saxlanılıb.

◆◆◆

**Xəzər RPİ 1-ci Polis Şöbəsinin** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki evlərin birindən 6 min 500 manat dəyərində məişət əşyaları və naqil oğurlamaqda şübhəli bilinən Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş L.Nərimanov saxlanılıb.

◆◆◆

**Sabunçu RPİ 13-cü Polis Bölməsinin** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində müxtəlif vaxtlarda rayon ərazisindəki 3 mağazadan pul, 2 min 100 manat dəyərində tütün məmulatı, 3 min manat dəyərində mobil telefonlar və telefon aksesuarları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunan T.Cəfərov saxlanılıb.

◆◆◆

**Sabunçu RPİ 15-cü Polis Bölməsinin** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon ərazisindəki iki ev və bir avtomobildən 450 manat pul, 1300 manat dəyərində televizor, qızıl, geyim və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunan Z.Hüseynov saxlanılıb.

◆◆◆

**Nərimanov RPİ-nin** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini əvvəllər məhkum olunan E.Novruzov saxlanılıb və ondan 9 kiloqramdan artıq marixuana götürülüb.

◆◆◆

**Abşeron RPİ-nin** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində cari il iyulun 24-dən avqustun 1-dək olan müddətdə Mehdiabad qəsəbəsi ərazisindəki istifadə olunmayan obyektlərin birindən 10 min manat dəyərində qapı və pəncərələr oğurlamaqda şübhəli bilinən Abşeron rayon sakini N.Hacıyev saxlanılıb.

# Fəaliyyətimiz təqdir edilir

XİN rəhbəri ölkəmizdəki diplomatik nümayəndəliklərin mühafizəsindən danışıb.

“Azərbaycanda olan bütün diplomatik missiyaların təhlükəsizliyi ən yüksək səviyyədə qorunur və bundan hər kəs faydalanır, o cümlədən Birləşmiş Krallığın Azərbaycandakı səfirliyi və orada işləyən diplomatlar”.

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib.

“Biz eyni yanaşmanı Birləşmiş Krallıqdan gözləyirik. Eyni zamanda ikinci gözləntimiz ondan ibarətdir ki, Birləşmiş Krallığın müvafiq orqanları bu cinayəti törədən şəxslər, bu cinayətin arxasında duran qüvvələrin müəyyən edilməsi istiqamətində çox ciddi araşdırmalar aparacaq və biz həmin nəticələri gözləyirik”, - C.Bayramov vurğulayıb.

XİN başçısı əlavə edib ki, Azərbaycan bu kimi öz öhdəliklərinə çox ciddi yanaşır.





***Bir neçə gün öncə Yevlaxdakı yangının söndürülməsində aidiyyəti qurumların əməkdaşları ilə birlikdə polisin müdaxiləsi baş verə biləcək daha böyük faciənin qarşısını aldı. Yanğın zamanı qocaları, uşaqları, bir sözlə, sakinləri xilas edərkən xəsarət alan FHN və DİN əməkdaşlarının ölümlə çarpışmalarını hamı gördü, hər kəs şahid oldu.***

***Riskli peşələrdə itirmək qorxusu vəziyyətə uyğun olaraq bir anın içində ona görə yox olur ki, sən özünü deyil, səndən yaşamaq üçün kömək gözləyəni, onun doğmalarını göz önünə gətirib adına xilaskarlıq və qəhrəmanlıq deyilən o addımı atırsan...***

***Bu şəkildə gördüyünüz oğullar da qəhrəmandırlar. Sevdikləri, seçdikləri peşəyə, içdikləri anda sadiqliklərini həyatları bahasına sübut edirlər.***

*T.Hafiz*





# Dayanma-durma qaydalarını pozanlar cərimələndi





Balakən Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən dayanma-durma qaydalarını pozmaqla digər hərəkət iştirakçılarının da haqlı narazılığına səbəb olan sürücülərin müəyyən edilməsi məqsədilə profilaktik tədbirlər keçirilib. DİN-in Şəki regional qrupumuzdan verilən məlumata görə, hərəkətin intensiv olduğu küçə və prospektlərdə keçirilən nəzarət tədbirləri zamanı ikinci cərgədə, avtobus dayanacaqlarında, səkilərdə, eləcə də müəyyən olunmayan digər yerlərdə avtomobillərini saxlayan sürücülər aşkar edilib. Onlarla izahedici söhbətlər aparılıb və barələrində inzibati tənbeh tədbirləri görülüb.




# Orqanizmin qocalmasını gecikdirən vərdişlər

Orqanizmin qocalmasını və demensiyanın inkişafını gecikdirmək üçün daha çox mütalia etmək, yeni şeylər öyrənmək, qan təzyiqinə nəzarət etmək, daha çox hərəkətdə olmaq, pis vərdişlərdən uzaqlaşmaq və təbiətdə daha tez-tez gəzmək lazımdır.

Bu barədə Rusiyada Herontologiya Elmi-Tədqiqat Tibb Mərkəzinin direktoru, herontoloq, tibb elmləri doktoru Kirill Proşayev bildirib.

Onun sözlərinə görə, yeni məlumatları, ya xarici dilləri öyrənmək, ekskursiyalara getmək, kitab oxumaq heç vaxt gec deyil - bütün bunlar koqnitiv ehtiyatın yaranmasına kömək edir.

Mütəxəssis bildirib ki, fiziki aktivliyi az olan insanlarda bu funksiyaların yaşlandıqca daha da pisləşdiyi elmi şəkildə sübut olunub.

“Müəyyən edilmiş normalar yoxdur, lakin Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) belə bir təlim sxemini təklif edir: həftədə 150 dəqiqə yüksək intensivlikli və ya 300 dəqiqə orta intensivlikli məşqlər, 2-3 dəfə güc məşqləri və həftədə bir neçə dəfə balans məşqləri. Nə qədər çox hərəkət etsək, yaşlandıqda və qocalıqda koqnitiv funksiyalarımız bir o qədər yaxşı olar”, - deyə Proşayev izah edib.



Herontoloq vurğulayıb ki, hər kəs öz təzyiqinə nəzarət etməlidir. Onun sözlərinə görə, hər hansı bir insanın, o cümlədən hipertoniya xəstələrinin təzyiqi 140/90-dan, yüksək qan təzyiqlə bərabər diabetdən əziyyət çəkənlərdə isə 130/80-dən də aşağı olmalıdır. Məhz bu versiyada onlar demensiyanın, infarktın və insultun, ürək, böyrək kimi orqanların zədələnməsinin qarşısını ala bilərlər.

Həkim əlavə edib ki, ekoloji cəhətdən əlverişsiz ərazilərdə yaşayan insanların təbiətdə daha tez-tez olması lazımdır.

“Ekoloji cəhətdən əlverişsiz bölgələrdə yaşayan insanların koqnitiv funksiyalarının vəziyyəti yaşla daha da pisləşir, buna görə də beyin funksiyasının qorunmasında vacib amil parklara, bağ evlərinə, şəhərətrafı ərazilərə baş çəkməkdir. Bir də siqaretin baş beyinə böyük zərər vurduğunu unutmamaq lazımdır”, - deyə Proşayev bildirib.

*Natiq Abdullayev*

## STATİSTİKA

## Kriminal icmal

- Avqustun 3-dən 10-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan cinayətlərdən 354-nün, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 105-nin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 245, o cümlədən borclu şəxs qismində axtarışda olan 161 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 17 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 18 nəfər ölüb, 11 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 128, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 7 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik